# Cahana sığmayan dahi





Azərbaycan ədəbiyyatı tarixinə görkəmli simalar bəxş etmiş Şamaxıda dünyaya gələn böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi onun ata yurdunda, eləcə də İsmayıllı Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi digər şəhər və rayonlarda çeşidli tədbirlərlə qeyd olunur.





***

Şamaxı rayon Mərkəzi Kitabxanasında Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə əlaqədar dəyirmi masa təşkil edilib. Çıxışlarda şairin keşməkeşli həyat yoluna və zəngin yaradıcılığına nəzər salınıb. Mərkəzi kitabxanada böyük şairin yubileyinə həsr edilmiş daha bir tədbir "Nəsimi Şərqdə fəlsəfi poeziyanın banisidir" mövzusunda olub.

Mərkəzi kitabxananın Uşaq şöbəsi və M.Hadi adına 9 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Bizdə şeir də var, sənət də vardır..." adlı tədbir keçirilib. Məktəblilər şairin qəzəllərini qiraət ediblər. Qızmeydan kənd kitabxanası və kənd məktəbinin təşkil etdiyi "Sığmazam" adlı tədbirdə isə şairin fəlsəfi dünyasından bəhs edilib.

Şamaxı Dövlət Rəsm Qalereyasında yubileylə əlaqədar "Şamaxı şairlər vətənidir" mövzulu portret janrında çəkilən əsərlərdən ibarət sərgi təşkil olunub.

Heydər Əliyev Mərkəzində "Nəsimi insanlığın kamillik zirvəsidir" adlı tədbir gerçəkləşib.

Şamaxı Rayon İcra Hakimiyyəti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialının təşkilatçılığı ilə keçirilən ədəbi-bədii gecə də "Nəsimi ili"nə töhfə olub. Mədəniyyət mərkəzində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov açıb. ADPU-nun Şamaxı filialının direktoru, dosent Tünzalə Yusifova Nəsimi şəxsiyyətinin, onun ideallarının və əqidəsinin müasir dövrümüzlə səsləşdiyini vurğulayıb. Filialın Ədəbiyyat və dillər kafedrasının müəllimi Rima Quliyeva Nəsimi poeziyasının humanizmindən söz açıb.






Tədbirin qonağı – "Nəsimi" filmində baş rolun ifaçısı, Xalq artisti Rasim Balayev ona şöhrət qazandıran ekran əsəri haqqında danışıb: "Nəsimi" filmi çox uğurlu alınıb. Həm də bu təkcə mənim yox, bütün kollektivin uğuru idi. Sevinirəm ki, bu filmə indi də maraqla baxırlar". Aktyor deyib ki, bir çox xalqlar Nəsimini öz şairi kimi təbliğ edirlər. Əslində isə o, Azərbaycan şairi olmaqla yanaşı, həm də bəşəri şairdir. Nəsimi poeziyasının fəlsəfəsi çox dərindir.

Görüşdə Rasim Balayevin şairin bir neçə qəzəlini səsləndirməsi tamaşaçıların alqışları ilə qarşılanıb. Sonda musiqili-ədəbi kompozisiyalar və "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.

***

İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində ədəbi-bədii gecə keçirilib. Şairin ədəbiyyatımızda yeri və rolu barədə söz açılıb, poeziyasının ədəbi düşüncəyə təsirindən bəhs olunub. Nəsiminin həyatını əks etdirən kompozisiya maraqla qarşılanıb.

İsmayıllı rayon MKS-nin 1 saylı şəhər filialında görkəmli söz ustadının yubileyinə həsr olunmuş sərgi təşkil edilib. Sərgidə şairin müxtəlif illərdə işıq üzü görən kitabları, eləcə də Nəsimi yaradıcılığına dair nəşrlər, mətbuat materialları yer alıb. Mərkəzi kitabxananın oxu zalında və MKS-nin 2 saylı şəhər filialında, Kürdmaşı kənd və digər kitabxana filiallarında da sərgilər təşkil olunub.

MKS-nin Qubaxəlilli kənd kitabxanasında keçirilən tədbirdə Nəsiminin həyat və yaradıcılığından danışılıb, ana dilində ədəbiyyatın inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilib. Tədbir iştirakçıları sonda "İmadəddin Nəsimi 650" başlığı altında sərgiyə baxıblar.

Qalacıq kənd Sənətkarlıq klubunda isə "Əbədiyyət səmasında doğan günəş" adlı ədəbi-bədii gecə keçirilib. "Nəsimi" adlı səhnə qonaqların marağına səbəb olub.

***

Ağsu rayon Mərkəzi Kitabxanasında "Məndə sığar iki cahan..." adlı ədəbi-bədii kompozisiya və "Ölümü ilə ölməzlik qazanan şair – Nəsimi" adlı tədbir keçirilib.

Mərkəzi kitabxananın Uşaq şöbəsində təşkil edilən "Həqq mənəm, Həqq məndədir, həqq söylərəm" başlıqlı sərgidə Nəsimi irsinin müxtəlif illərdə nəşr olunmuş nüsxələri və şairin yaradıcılığına həsr edilən kitablar nümayiş olunub.

Göydəlləkli kənd klubunda kənd kitabxana filialının və orta məktəbin iştirakı ilə böyük söz ustadının yubileyinə həsr olunan tədbir keçirilib.





Tədbirdə şairin həyat və yaradıcılığından bəhs edilib, şagirdlər Nəsiminin qəzəllərini söyləyiblər.

Rayon Mədəniyyət mərkəzində "Nəsimi 650" adlı yubiley gecəsi təşkil olunub. Gecədə şairin dillərə dastan ömür yoluna və bənzərsiz yaradıcılığına nəzərə salınıb, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri vurğulanıb.

Ağsu rayon Uşaq musiqi məktəbində keçirilən tədbirdə Nəsiminin ədəbi irsindən söz açılıb, şagirdlərin ifasında musiqi nömrələri maraqla qarşılanıb.

***

Qəbələ Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Nəsiminin yubileyinə həsr olunan sərgi keçirilib. Tədbir iştirakçıları sərgilənən nəşr nümunələri ilə maraqla tanış olublar.



MKS-nin oxu zalında keçirilən yubiley tədbirində isə Nəsimi yaradıcılığının Azərbaycan ədəbi dilinin inkişafında mühüm rol oynadığı, ədəbiyyatımızın janr baxımından zənginləşməsinə töhfələr verdiyi qeyd olunub.

***



Heydər Əliyev Mərkəzində şairin 650 illik yubileyinə həsr olunan tədbirdə çıxış edənlər Nəsiminin hürufilik təriqətinin geniş coğrafiyada yayılmasında xidmətləri qeyd olunub. Tədbirin sonunda "Nəsimi" bədii filmindən parçalar nümayiş etdirilib.

Rayon Tarix-diyarşünaslıq muzeyinin filialı olan İsmayıl bəy Qutqaşınlının ev-muzeyində gerçəkləşən tədbirdə də Nəsiminin söz və hikmət xəzinəsindən söz açılıb, şairin bədii irsinin həmişə öz aktuallığını qoruyacağı vurğulanıb. Şəhər İncəsənət məktəbində yerli yazarların iştirakı ilə dəyirmi masa təşkil edilib.

Qəbələ rayon Mədəniyyət Mərkəzində ədəbi-bədii gecə keçirilib. Tədbirdə dahi şairin qəzəlləri səsləndirilib, musiqili səhnəciklər nümayiş olunub.

Qobustan rayon Mədəniyyət Mərkəzində İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə şairin əsərləri şagirdlər tərəfindən qiraət edilib və fərqlənənlər mükafatlandırılıb.

Qobustan şəhər R.Behbudov adına Uşaq incəsənət məktəbində "Cahana sığmayan şair" adlı tədbir keçirilib.

Təklə kənd Uşaq musiqi məktəbində də əlamətdar yubileylə əlaqədar tədbir gerçəkləşib.

Mərkəzi kitabxana və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə "Məndə sığar iki cahan" adlı ədəbi-bədii gecə keçirilib. Şairin həyat və yaradıcılığına həsr edilmiş çıxışlarla yanaşı, söz ustadının qəzəlləri səsləndirilib. "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub. Tədbirdə həmçinin şairin qəzəlləri üstündə həvəskar xanəndələr muğamlarımızı ifa ediblər.

***

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Şamaxı şəhərində gerçəkləşən tədbirində də "Nəsimi 650" və "Nəsimi ili" başlıqlı kitab sərgiləri nümayiş etdirilib. Heydər Əliyev parkında təşkil olunan mədəniyyət bayramında rayon sakinləri və qonaqlar "Nağaraçalanlar", "Pirqulu" instrumental ansambllarının maraqlı ifalarını dinləyiblər. Xalq çalğı alətləri orkestri və xor kollektivinin rəngarəng çıxışları, uşaq incəsənət və musiqi məktəbləri şagirdlərinin, Buta" rəqs, "Şirvan" folklor kollektivlərinin ifaları festivalın proqramını daha da yaddaqalan edib.

